**RZA RƏHİMİ**
*BDU-nun aspirantı*

# SOSIAL KAPITAL ANLAYIŞININ MAHIYYƏTI VƏ INKIŞAF TARIXI

Müasir sosioloqlar cəmiyyətdə ictimai əlaqələrin kəmiyyət və keyfiyyət göstəricilərini araşdırmaq üçün sosial kapital anlayışından istifalə etmişlər. Bəs onda sosial kapital nədir? Sosial kapital elə kapital və mənbələrdir ki, fərdlər, qruplar bir-biri ilə əlaqədə olaraq, bu əlaqələrin keyfiyyətini kapital, onun növü vasitəsi ilə əldə edilə bilər. (Bordio 1986, Kolmen 1988, Tutnam 1993, Sarepura istinadan 2004, 2001, s. 296)

Mövcud mənbələr göstərir ki, bu məsələ ilə bağlı elə bir icma yoxdur ki, nə vaxt və harada ilk dəfə olaraq sosial kapital qoyuluşu istilahı işlənmiş olsun. Bu məfhum ilk dəfə olaraq 1916-cı ildə məktəb islahatçısı olan Henifen tərəfindən işlədilmişdir. Sonra 1971-ci ildə Jan Jak şəhər proqramlaşdırılmasında bu istilahı işlətmişdir. Onun fikrincə, bir şəhər şəbəkələr sosial kapital hökmünə malikdir. 1970-ci illərin sonlarında iqtisadçı Belen Louri irqlərin qeyribərabərliyinin neoklassik nəzəriyyələrinini tənqid edən zanan bu məfhumdan istifadə etmişdir. Fransalı sosioloq Pyer Bordio bu məfhumu işlətmişdir. Amma həqiqətdə amerikalı sosioloq Ceyms Kolmen 1988-ci ildə Çikaqo şəhərində məktəb işlərində iştirak edilməsi haqqında bu məfhuma diqqət yetirmişdir. Ondan sonra 1990-ci onillikdə Potnam İtaliyada bu məfhumdan demokratik institutları öyrənmək üçün istifadə etdikdən sonra daha da məhşurlaşdı (Şarepur (2004), s. 7-296, Pavar 2006, s. 214).

1990-cı ilin əvvəllərində bir çox elmi jurnallar və məqalələr də açar sözləri kimi sosial kapital istilahlarına müraciət etmişlər. (Təqribən 20 məqalədə). 1991-1995-ci illər arasında bu say 110-a çatdı və 1996-2000-ci illər ərzində bu istilah işlənən məqalələrin sayı 1010-a çatmışdır. 2001-2003-cü illər ərzində daha 1090 məqalə yazılmışdı (Pavar, yenə orada, s.224, Şarepur, yenə orada, s.297).

İndi bir çox sahələrdə sosial kapital istilahı işlədilir. O cümlədən sosiologiyada, siyasi elmlərdə, iqtisadiyyatda, müxtəlif yerli və milli siyasətlər səviyyəsində bu istilahlardan istifadə olunur. Bu da həmin məfhuma müxtəlif təriflərin verilməsinə səbəb oldu. Amma onun haqqında o qədər də icma olmamışdır. Lakin işarə olunduğu kimi, xülasə şəklində desək, sosial kapital fərdlərin, qrupların öz məqsədlərinə çatmaq üçün istifadə etdikləri ictimai cəhətlərə və xüsusiyyətlərə malik olan mənbələrdir. Sosial kapital məfhumunda sosial sözünün mövcudluğu sübut edir ki, bu mənbələr şəxsi və fərdi deyildir.

Qısaca demək olar ki, əgər fiziki kapital tikintidə, torpaqda və ya təchizatda tətbiq edilərsə və ya maliyyə kapitalı bir fərdin bankda malik olduğu bir maliyyə vəsaitidirsə, insan kapitalı fərdlərin zehinlərində mövcud olan bir şey onların bildikləridirsə, sosial kapital fərdlərin əlaqələri şəbəkəsində, onların qruplarla, fərdlərlə əlaqələri həcmində, bu əlaqə şəbəkələrinin rəngarəngliyindədir. Bu məfhumda kapital istilahı istiarə formasındadır. Başqa formalarda isə kapital məfhumunun forması da müxtəlifdir. Bu ibarədə bu məfhumun mövcud olması kapitalın bu formasının başqa kapital forması kimi yaradıcı olmasıdır. Odur ki, bu kapital da dəyərlər yaratmaq qüdrətinə malik olur, müəyyən bir iş görür və müəyyən bir məqsədi yerinə yetirir və s. Əgər bu kapital mövcud olmazsa, yuxarıda göstərilənlər də mümkün olmur. (Şarepur, yenə orada 297, Tacbəxş 2005, 2005, 9-28. Kolmen 1384-2005, s. 49)

Kapital qoyuluşu nəzəriyyəsi. Müxtəlif fərdlər ictimai kapital kimi bəhs olunurlar. Lakin burada aydın şəkildə bu adamlardan müxtəlif zümrələrdən olan işarə olunacaq-

dır. Bu məsələyə Potnam siyasi fəlsəfə nöqteyi-nəzərindən Bordio və Kolmen isə sosiologiya nəzərindən yanaşmışlar.

Pyer Bordionun nəzəriyyəsi. Bordio sosial kapitalı kapitalın bir növü kimi hesab edir. Bordionun fikrincə kapital üç əsas şəkildə formalaşır.

1.İqtisadi kapital. İqtisadi kapital birbaşa pula çevrilir və ola bilsin ki, qurumun mülkiyyət hüququ formasında da olsun.

2.Mədəni kapital, xüsusi şərtlərlə iqtisadi kapital təhsil qurumunun formasında çevrilə bilər.

3.Sosial kapital "əlaqə və qaynaqlar" əsasında sosial öhdəliklərdən və təkliflərdən təşkil olunur, bəzi hallarda iqtisadi kapitala çevrilir. Bu sosial kapital qurumun adı və əsası formasında olması da mümkündür (Bordio 1384-2005, s.136).

Bordio sosial kapitala belə tərif verir: "Sosial kapital fərdlər arasında az-çox qarşılıqlı tanıma və tanışlıq formasında təşkilatlanaraq davamlı şəbəkə mülkiyyəti nəticəsində potensial və təsirli bir mənbədir. Sadə şəkildə desək, bir qurumun üzvü olmaq deməkdir" (Bordio, 1985, s.248). Əlbəttə, bu şəbəkələr xüsusi növdə olmalıdır. Yəni müsbət və etimadlı olmalıdır.

Bordio bu məfumu daha çox bir vasitə, alət kimi dəyərləndirir. Çünki, onu daha çox ictimai əlaqələr vasitəsi ilə iqtisadi, mədəni mənbələrə yetişmək üçün bir alət hesab edir və nəhayətdə iqtisadi kapital müxtəlif formalarda ixtisarı hesab edir. Digər bir tərəfdən, onun fikrincə ictimai kapital təbii bir nemət deyildir və fərdi və ya kollektiv şəkildə kapital qoyuluşu ilə möhkəmlənib təsbit olunmalı və təkrar istehsal olunmalı və ictimai, kollektiv əlaqələrin əsası olmalıdır, o yaradılmalıdır. Əlbəttə, bu məsələyə də diqqət yetirilməlidir ki, Bordio mədəni və sosial kapital formalarının iqtisadi formaya keçməsi üzərində təkid edirsə də, sosial, mədəni kapitalın iqtisadi kapital prosesinə keçmə qabiliyyəti yoxdur. Onun fikrincə kapitalın hər iki növü özünə məxsus xüsusiyyətlərə malikdir. Ümumiyyətlə, Bordionun fikrincə sosial kapital ictimai məhsulun bir növüdür. Bu kapital başqalarla ictimai əlaqələr zamanı yaranmışdır. Fərd cəmiyyətdə öz iqtisali mövqeyini yaxşılaşdıra, ondan mənfəət əldə edə bilər (Portes, 1384, 309-310, Şarepur, 2004, s.299-300, Firuzabadi, 2005, s.5-6).

Kolmenin baxışları. Kolmen sosial kapital məfumunu təcrübi-əməli şəkildə ilk araşdıran və onun övladları təhsili tərk etmiş ailələrdə ailənin həm daxili və həm də xarici sosial kapitalına təsirini tətbiq edən ilk tədqiqatçıdır. Bordio ilə müqayisədə Kolmen ictimai kapitala nə mahiyyətlə, nə də onun məzmununa deyil, onun fəaliyyətinə görə tərif verir. O, ictimai təşkilatları sosial kapitalın adıcısı hesab edir. Onun fikrincə, ictimai kapital vahid bir şey, maddə deyil. Əksinə, iki müştərək xüsusiyyətə malik olan cürbəcür şeylərin növləridir. Onların hamısı ictimai quruluşun bir tərəfidir. İnsanların bəzi əməlləri o quruluşunu yüngülləşdirir- sadələşdirir. (Kolmen 1998, s. 462, 2005, s 49). Kolmen fəaliyyət göstərən adamlar üçün sosial kapital təşkil edə bilən üç ictimai mənbənin adını çəkir:

- *Birincisi*, insan əlində kredit kartı kimi olan öhdəlik və gözlənilənlərdir və xidmətlərin qarşılıqlı şəkildə əvəz olunacaqlarına zəmanət verir, onları təzmin edir. Öhdəliklər və gözlənilənlər həqiqətdə ictimai mühitə etimad etmə qabiliyyətindən aslıdır. Çünki, belə bir mühitdə xidmətlərin və borcların ödənilməsin gözləmək olar. Daxildə əlaqələrin etimadı, öhdəlikləri və gözlənilənlər olmazsa bu əlaqələr formalaşmayacaqdır.

- *İkinci, İ*nformasiya tutumu elə bir mənbədir ki, informasiyaların əldə edilməsinə imkan yaradır və informasiyanın əhəmiyyəti odur ki, fəaliyyət üçün imkan yaradır.

- *Üçüncü,* qarşısı alma normaları və hökmlərin növlərin mövcudluğu. Həm mövcud olan və həm təsirli olan hökmlər, icraat üçün zəmanət verirlər. Kolmenin fikrincə

sosial kapitalın güclü formasını təşkil edir və şəxslərin öz şəxsi mənafeyinin arxa plana atılmasına və kollektivin mənayeyinin öz plana çəkilməsinə səbəb olur ( Kolmen 1377, 476-477, 2005, 57-64)

Kolmenlə Bordionun fərqi budur ki, Bordionun fikrincə şəxs sosial kapital sahibi ola bilər, onu öz malı edə bilər. Lakin Kolmenin sosial kapital öz mahiyyətinə görə fəaliyyət göstərənlərin əlaqələr strukturunda birlikdədir və onlar arasında əlaqə vardır.Bu kapital onların (fəaliyyət göstərənlərin) özündə və onların fiziki istehsalında deyildir (Kolmen 2005, s. 49-50). Həmçinin Bordio daha çox buna maraq göstərir ki, sosial kapital müxtəlif vaxtlarda necə olur ki, iqtisadi kapitalın artmasına səbəb olur? Amma Bordio daha çox sosial kapitalın insan kapitalının yaranmasına təsirinin araşdırılmasına maraq göstərir (Şarepur, 2004, s. 302).

Robert Potnam. Sosial kapitalın üçüncü mütəfəkkiri Robert Potnamdır. Bəlkə də o bu günkü dünyamızda sosial kapitalın ən məşhur tədqiqatçı müəllifi və iddiaçısıdır. Potnam daha çox sosial kapitalın milli səviyyədə təsiri ilə maraqlanır ki, sosial kapital demokratik təşkilatlara, təmərküzləşməyə və nəhayət, iqtisadi inkişafa necə təsir edir? Potnamın fikrincə sosial kapital cəmiyyətin işə yararlığını, ya görülən harmoniya tədbirlərini yaxşılaşdıra bilən etimad, norma və şəbəkələr kimi ictimai təşkilatların xüsusiyyətlərindən (vastələrdən) ibarətdir(Potnam 1998, s.285). Potnam, Kolmen və Bordio arasında əsaslı fərq budur ki, Potnam bu sosial kapital məsələsini nisbətən daha xırda səviyyədə müzakirə edən mütəfəkkirni əksinə olaraq, onu daha geniş səviyyədə müzakirə edir, onu ijtimaiyyətin və jəmiyyətin xüsusiyyəti hesab edir.

Potnam sosial kapital haqqında öz təcrübi tədqiqat işini İtaliyanın yerli hökumətləri haqqında başladı. Bütövlükdə o, 20 il İtaliya yerli hökumət orqanlarının iş qabiliyyətli olması və iş qabiliyyətli olmaması, onun iqtisadi inkişafının və inkişaf etməməsinin səbəbləri haqqında tədqiqat apardıqdan sonra bu nəticəyə gəlmişdir ki, İtaliyanın bir çox regionlarıyüksək sosial kapitala malikdir, daha işə yararlı yerli hökumətləri vardır və daha çox iqtisadi inkişafa malikdir. Əksinə, sosial kapitalı aşağı olan yerli hökumətlər işə yararlı deyil və iqtisadi cəhətdən işə yaramır. Ümumiyyətlə, Potnam tədqiqatının nəticəsi budur ki, demokratik təşkilatların işə yaraması və onun iqtisadi yararlığı – hər ikisi sosial kapitala möhtacdır və güclü sivill cəmiyyətlər tərəfindən onların inkişafı üçün imkan yaradılır (İngiltərə Statistika idarəsi 2001,9, Şarepur 2004, 303-4, Tacbəxş 2005, s.12).

Ümumiyyətlə, sosial kapital haqqında nəzəriyyələri iki əsas qrupa bölmək olar:

1.Birinci qrupa aid olan nəzəriyyələr Potnam nəzəriyyəsini əsas tutaraq, sosial kapitala mədəni bir hadisə kimi tərif verir və cəmiyyət üzvlərinin sivill işlərə aid nəzər və əhəmiyyətini göstərir, kollektivin ictimai əxlaqını ifadə edir, ictimai təşkilatlara etimad meyarını göstərir. Bu mənada sosial kapitalı ictimai və ümumi bir əmtəə hesab edir.

2.İkinci qrup nəzəriyyələr Potnamın əksinə olaraq sosial kapitalı bir növ ictimai şəbəkələrdə cəmiyyət fərdlərinin kapital qoyuluşu hesab edən Pyer Bordionun ardınca gedərlər. Bu mənada onlar sosial kapitalı xüsusi və şəxsi əmtəə hesab edir. Kolmen də bu minvalla sosial kapital məziyyətlərini fərdə və ya fərdlər şəbəkəsinə aid edir. Əlbəttə, Kolmeni şəxsi əmtəə kollektiv (ümumi) əmtəə arasında bir vasitəçi hədd kimi göstərmək olar. Amma bəzi tədqiqatçılar onun hər ikisini bir sırada göstərir. Çünki, onların hər ikisi ictimai-iqtisadi əlaqələr zamanı qarşılıqlı təsir və əkstəsir düşüncələri üzərində təkid edirlər.

## ƏDƏBİYYAT

1.Şarepur M.(2004) Sosial kapitalın parametrləri, fəaliyyəti və onun erroziyasının nəticələri. İran ictimai məsələlər kitabında nəşr olunmuşdur (məqalələr toplusu), s.291-326. Tehran, 1 çap, Agəh nəşriyyatı (fars dilində)
2.Kolmen J.(1999). Sosial nəzəriyyələrin əsasları. M.Səburinin tərcüməsi, Tehran, 1 çap, Ney nəşriyyatı (fars dilində)
3.1384. Sosial kapitalın insan kapitalını yaratmaqda rolu. Sosial, etimad, demokratiya və inkişaf adlı monoqrafiya. Kiyan Tacbəxş. A.Xakbazın və H.Payanın tərcüməsi, s.41-91. Tehran. 1çap, Şiraze nəşriyyatı (fars dilində)
4.Bordio Pyer (2005). Kapitalın növləri. Yenə orada, s.131-167. (fars dilində)
5.Purtes, Alhazru (2005). Sosial kapital, onun müasir sosiologiyada yeri və tətbiqi. Yenə orada, s.303-349. (fars dilində)
6.Tacbəxş K (2005). Yenə orada müqəddimə, s.9-21. (fars dilində)
7.Kiya Mustafa, Firuzabadi, Seyid Əhməd (2005) Sosial kapital və onun istehsalın təşkilində rolu, «Sosiologiya» jurnalı №5, 2004, s.49-72. İran sosiloqları assosiasiyasının nəşri. (fars dilində)
8.Potnam R. (2005). Demokratiya və yerli hüquq M.Delviruzun tərcüməsi, 1 nəşr, Sacalam nəşri. (fars dilində)
9.Firuzabadi S. (2005). İranda sosial kapitalın araşdırılması layihəsi və onun yüksəlməsi yolları. Ali İnqilab mədəniyyəti şurasının kitabxanası. (fars dilində)

**РЗА РАГИМИ**

### СУЩНОСТЬ ПОНЯТИЯ «СОЦИАЛЬНЫЙ КАПИТАЛ» И ИСТОРИЯ ЕГО РАЗВИТИЯ В СОВРЕМЕННЫХ ИССЛЕДОВАНИЯХ

Теории социального капитала в целом можно разделить на две группы: к первой из них стоит отнести те, которые вслед за Потнамом считают социальный капитал социальным явлением, показывающим отношение членов общества к цивильным делам в теории и на практике, является выражением общественной морали коллектива, является мерилом доверия в общественных организациях. Ко второй следует отнести тех, кто вслед за Пьером Бурдье считают общественных капитал своеобразной инвестицией членов общества в общественные ячейки. Здесь капитал считается частным и личным товаром. К этой точке зрения присоединяется и Коулмен. Некоторые же исследователи соединяют обе указанные точки зрения и отмечают, что в социальном капитале налицо взаимовлияние социальных отношений как на личностном, так и на общественном уровнях.

**RZA RAGIMI**

### ESSENCE OF CONCEPT «THE SOCIAL CAPITAL» AND HISTORY OF ITS DEVELOPMENT IN MODERN RESEARCHES

Theories of the social capital as a whole can be divided on two groups: it is necessary to carry to the first of them what after Potnam consider the social capital as the social phenomenon showing the attitude of members of a society to civil affairs in the theory and in practice, is expression of public morals of collective, is a trust criterion in public organizations. It is necessary to carry those who after Pierre Bourdio consider public the capital as the original investment of members of a society into public cells to the second. Here the capital is considered the private and personal goods. Koulmen joins this point of view also. Some researchers connect both specified points of view and notice that in the social capital interference of social relations both on personal, and on public levels is available.

***Rəyçilər: Fəl.e.n. Q.Y. Abbasova, f.e.d.N.M.Mikayılov.***

***BDU-nun Sosial elmlər və psixologiya fakültəsinin Sosiologiya kafedrasının 25 noyabr 2009-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №04).***